# TARİXŞÜNASLIQ

UOT:94(479.24)+94(560)

**Aybəniz Əliyeva-Kəngərli,**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*filologiya üzrə elmlər doktoru*

*e-mail-biblio_az@yahoo/com*

**İbrahim Quliyev,**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*filologiya üzrə fəlsəfə doktoru*

*vhgazet@gmail.com*

## TÜRK QADINLARININ TARİXDƏ ROLU

**Açar sözlər:** *tarix, Teymurilər, Moğollar, Səlcuqilər, Qurganilər.*
**Ключевые слова:** *история, Тимуриды, Моголы, Сельджуки, Гургани.*
**Key words:** *history, Timurids, Mongols, Seljuks, Qurqanis.*

Türk qadınları bütün tarix boyu cəmiyyət həyatında mühüm rol oynamış, ailə-məişət məsələləri ilə yanaşı, siyasi və iqtisadi sahədə zəruri qərarların qəbul edilməsində, dövlət idarəçiliyi məsələlərində fəal iştirak etmiş, bəzən hətta bütövlükdə xalqın, ölkənin məsuliyyətini üzərlərinə götürmüşlər. İncə, zərif məxluq hesab olunan qadınların tarixi anlarda kişilərlə çiyin-çiyinə cəsarət və mətanət göstərmələri, hətta hərbi sərkərdə məqamına qədər yüksəlmələri də tarixi faktdır. Xüsusilə də, türk qadınlarının dinclik dövründə quruculuq və abadlıq işlərində böyük səy göstərmələri, sənət və sənətkarları himayə etmələri, müharibə zamanı isə qılınc qurşayıb özlərini od-alovun içərisinə atmaları qəhrəmanlıq tariximizin ən yaddaqalan səhifələrindəndir. Zəngin mənəviyyatı qədər qədim tarixi köklərə malik Azərbaycan xalqının mifik təfəkküründə, folklorunda da qadın obrazının müstəsna yeri var. Bəşər cəmiyyətinin ibtidaidən aliyə doğru gedən mürəkkəb və ziddiyyətli inkişaf yolunda qadının tutduğu tarixi mövqe və yerinə yetirdiyi özünəməxsus funksiyalar Azərbaycan xalq nağıllarından tutmuş bu gün müasir dövrdə yazılan bədii əsərlərdə də geniş və əhatəli təsvir olunmuşdur. Əsası gerçəyə dayanan nağıllarda təsvir olunan qadınlar yalnız gözəllik, nəciblik, sədaqət, müdriklik mücəssəməsi olmayıb, həm də qeyri-adi fiziki qüvvəyə-cəngavərlik və bahadırlıq imkanına malik olan möhtəşəm obraz kimi adi insanlardan fəqrlənirlər. Nağıllarımızdakı qadın, ən nəhayət, cəmiyyət əsasını təşkil edən ailənin təməl daşıdır, daha doğrusu, ailə ocağının qoruyucusudur. Folklor nümunələrindəki ailənin monolit xarakteri burada məhz qadının böyük nüfuza malik olması ilə əlaqələndirilir.

Mühafizəkar və mürtəce qüvvələrin islam adından istifadə edərək cəmiyyətdə qadın əsarətinə çalışdıqları çağlarda belə türk dünyasında qadının hüquqları pozulmamış, o, cəmiyyət həyatından təcrid edilməmişdir. Heç təsadüfi deyil ki, Azərbaycan müstəqillik qazandığı ilk dönəmdən başlayaraq Ümummilli lider H.Əliyevin də ən çox diqqət yetirdiyi məsələlərdən biri Azərbaycan qadının ictimai-siyasi həyatda fəal rolunun təmin edilməsi, onun hüquq bərabərliyinin qorunması olmuş və bu siyasətin nəticəsi olaraq 2000-ci il mart ayının 6-da "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman meydana çıxmışdır. Ümummilli liderin uzaqgörən siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində isə 2006-cı ildə Azərbaycanın qanunverici orqanında gender bərabərliyi haqqında qanun qəbul olunmuşdur (1). Bu qanun və fərmanlar əslində böyük tarixi ənənədən – türkün azad cəmiyyət prinsiplərindən nəşət tapmışdır və yuxarıda qeyd etdiyimiz kimi, bu prinsipləri hətta ortodoks islam şəriəti belə sarsıda bilməmişdir. Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bu günlərdə "İslam və qadının cəmiyyət həyatında rolu haqqında" dedikləri də, fikrimizcə, bu mənada çox ibrətamizdir: "...Digər müsəlman dövlətlərə və islamın qayda-qanunları ilə yaşayan insanlara sonsuz hörmətimiz var, ancaq biz ərəb deyilik. Biz türk xalqıyıq. Ərəblər kimi qızlarımızı dini və mədəni və ya ictimai təzyiqlərə görə büküb, bundan müsəlman dövlət imici olaraq istifadə edə bilmərik. Onları çadralara bürüyərək evdə həbs etmək bizim yolumuz deyil... Bizim xalqımız qadın, kişi fərqi qoymadan bu günlərə gəlib çıxıb. Qadınlarımız kişilərinin yanında gedib - arxasında deyil, əksinə önündə... Müsəlman və sünni bir olmağımız qadınların həyatlarına qarışmağımız üçün səbəb ola bilməz" (2).

Həqiqətən də türklər tarixdə öz mövcudiyyətlərini elan etdikləri, imperiyalar yaratmağa əl qoyduqları dövrlərdən qadınlar cəmiyyət həyatında fəal iştirak etmiş, həm də təkcə elm, ədəbiyyat, mədəniyyət sahəsində deyil, siyasi səhnədə də parlaq nailəyyətlərə imza atmışlar. Nəticədə, real həyatı və tarixi zəmin üzərində yüksələn ədəbiyyatımızda, istər şifahi, istərsə yazılı olsun, zəngin qadın obrazları qalareyası meydana gəlmiş və tarixi fakt-bədii obraz münasibətləri qarışılıqlı şəkildə inkişaf edərək daim təkmilləşmişdir. Lakin onu da bildirməliyik ki, tarixdə və tarixin ayrı-ayrı mərhələlərində türk qadınlarının rolu, siyasi, iqtisadi, mədəni sahədə onların gördükləri işlərlə bağlı hələ ciddi elmi əsərlərə, tədqiqatlara, araşdırmalara az rast gəlirik, halbuki bu əsərlərə çox böyük ehtiyac var, çünki zəngin tarixi irsdən, Səlcuqilər, Teymurilər, Xarəzmşahlar, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər, Moğollar (Baburilər) və s. dövrlərdə türk qadının geniş fəaliyyətini özündə ehtiva edən böyük tarixi təcrübədən istifadə etməklə, daha doğrusu, demokratik dəyərlərə milli-tarixi ənənələr çərçivəsindən yanaşmaqla qloballaşan dünyada öz milli kimliyimizi qoruyub saxlaya bilərik.

Təbii ki, bir məqalə daxilində qarşıya qoyulan məqsədə - türk qadınının tarixdə rolunu sistemli şəkildə araşdırmağa, onun geniş ictimai fəaliyyətini təhlil etməyə nail olmaq mümkün deyil, buna görə yazıda yalnız ayrı-ayrı tarixi mərhələrdə türk qadınlarının fəaliyyətinə, siyasi qərarlara təsirinə toxunacağıq. Məsələn, Teymurilərin Heratda hakim olduğu dövrdə Şahruxun həyat yoldaşı Gövhərşad bəyim (1376-1456) adlı bir türk qadının son dərəcə geniş ictimai fəaliyyətlə, ölkənin abadlaşdırılması, məscidlərin tikilməsi, yolların çəkilməsi və s. məsələlərdə əri ilə bərabər çalışmasına şahid oluruq. Onun əsas quruculuq işlərindən biri, hətta uzunsürən müharibələrin belə dağıda bilmədiyi və bu gün də Heratda öz əzəməti və möhtəşəmliyi ilə diqqəti cəlb edən geniş ictimai ibadət meydançasına malik məscidin minarələridir. Gövhərşad bəyim bu böyük xeyirxahlıq işləri ilə bərabər, həm də əri Şahruxun siyasət və dövlət işlərində

onun yaxın həmkarı və həmfikiri olmaqla tarixin bu son dərəcə mürəkkəb dönəmində onunla çiyin-çiyinə dayanaraq ölkənin bütövlüyünü qoruyub saxlamışdır.

Əlavə şərhə ehtiyacı olmayan və əsl adı Ərcümənd Banu bəyim olan, şərəfinə dünyanın yeddi möcüzəsindən biri sayılan Tac Mahal iqamətgahı ucaldılan Mümtaz Mahal da Moğollar imperiyasına ciddi təsirə malik bir türk qadını olmuşdur. O, demək olar ki, bütün səfərlərdə ərini müşaiyət etmiş və 9 aylıq hamilə olmasına baxmayaraq, Bürhanpurda baş vermiş üsyanı yatırmaq üçün oraya Şah Cahan Baburla getmiş və vəfat etmişdir. Təxminən 20 ilə tikilən Tac Mahal türk imperatorunun qadına sədaqətinin, eşq və ehtiramının əlaməti kimi meydana gəlmişdir (3., s. 67). "Teymurilər və türkmənlərin tarixi" barədə əsər yazmış Doktor Hüseyn Mircəfəri türk imperiyalarında xatunların ictimai rolu və missiyası haqqında fikirlərini belə ümumləşdirir: "Teymuri dövrünün qadınları da əvvəlki dövrlərdəki kimi ərlərinə möhkəm bağlı olmuş, onların ən yaxın silahdaşları kimi fəaliyyət göstərmişlər. Buna baxmayaraq, moğollar və teymurilərin yanında qadınların nüfuz və etibarı digər heç bir dövrlə müqayisə oluna bilməz" (4).

Elxanilərin süqutu və Teymurilərin hakimiyyətə gəldiyi zamanı görən, həmin dövrdə siyasi dairələrlə yaxınlığa malik olan məşhur səyyah və tarixçi İbn Bətutə "Səfərnamə" adlı məşhur əsərində türklər arasında qadının mövqeyini aşağıdakı kimi şərh etmişdir: "Bu ölkədə məni ən çox təəccübləndirən türklərin öz qadınlarına göstərdikləri ehtiram idi. Bu xalqın içərisində qadının mövqeyi kişinin mövqeyindən yüksək idi" (5. s.401). Teymurilərin və türkmənlərin tarixini yazan və Əmir Teymurun böyük arvadının dəvəti ilə Səmərqənddəki məclislərdən birində iştirak edən İspaniyanın Səmərqənddəki səfiri, səyyah və yazıçı **Qonsales Klavixo** qadınlarla bağlı yazır: "Teymurun qadınları bütün bayramlarda və sarayın qəbul mərasimlərində iştirak edirdi. Bəzən özləri qonaqlıq təşkil edir və orada məmləkət böyükləri, xarici ölkələrin səfirləri, saray qadınları, adi adamlar iştirak edirdi" (6).

Türklərin qadına ehtiramını nişan verən tarixi faktlardan biri də monqol ailəsindən olan Suray Mələk xanım adlı qadınla izdivaca girən Əmir Teymurun Çingiz xanədanının kürəkəni olması şərəfinə özünə "gürgan", yəni "kürəkən" ləğəbini götürməsidir. Sonradan Uluğ bəy də öz sələfi kimi monqollarla qohum olmaq münasibətilə özünü "Kürgani" ləğəbinə haqlı saydı və öz xanımına ehtiram əlaməti olaraq monqol xanədanına mənsub şəxslərdən birini xan məqamına yüksəltdi, halbuki Əmir Teymurun oğlanlarından və nəvələrindən heç biri "kürgani" ləqəbi daşımırdı və monqol xanədanından heç kəs xan rütbəsinə yüksəlməmişdi.

İrəlidə Şahruxun həyat yoldaşı Gövhərşad bəyimin fəaliyyəti haqqında ötəri danışdıq, lakin əslində o, Teymurilər dövründə ən görkəmli və nüfuzlu şəxslərdən biri olmuşdur: "Əmir Teymurun öz zamanında oğlu Miranşahın oğlu Xəlil Sultan *(yəni nəvəsi-A.K.-Ə. və İ.Q.)* və onun məşuqəsi Suray Mələk məhz bu xanımın tədbiri sayəsində Teymurun qəzəbindən xilas oldular. Sultan Xəlilin həyat yoldaşı Şad Mələk də Teymurun ölümündən və Xəlilin hakimiyyətə çatmasından sonra dövlətin idarə edilməsində böyük təsirə malik olmuş, ölkədə böyük abadlıq və quruculuq işləri görmüşdür. Onların arasındakı eşq və məhəbbət dastanı Teymurilər tarixinin ən kədərli səhifələrindəndir" (4, s.404). Belə ki, Şad Mələk Xəlil Sultanın ölüm xəbərini eşidən zaman onun ayrılığına dözməyərək həmin andaca özünə qəsd etmişdir. "...Bir xəncər götürüb elə bir qüvvətlə öz sinəsinə vurmuşdu ki, xəncərin ucu kürəyindən çıxmışdı. Bu hadisəni görənlərin ürəyi təsəvvürəgəlməz bir atəşlə yanıb. Hər iksini bir qəbirdə dəfn ediblər" (4, s.404).

“Köçərilər imperiyası”nın müəllifi Rene Grousset də kitabında bu məsələyə toxunmuşdur: “Xəlil Sultan öz sərvət, qüdrət və cavanlığını Şad Mələk xanım adlı məşuqəsinə sərf etmişdi və öz ay üzlü dilbəri üçün türk və fars dilində atəşin şeirlər yazırdı. Bu şeirlərdən divan yarandı. Nəhayət, ölkə böyükləri və tayfa ağıllıları Şahruxun razılığı ilə h.811/1408-ci ildə aşiq olmuş gənci tutub, Şahruxiyyə qalasına saldılar və onun məşuqəsinin qulağını və burnunu kəsdilər (7.s.757 ).

Abdullah Kargər “Teymurilər dövründə qadının rolu” adlı əsərində bu məsələyə toxunaraq Xəlil Sultanın sevgilisi üçün yazdığı bir bayatıdan da nümunə vermişdir: “Xəlil Sultan bir məclisdə öz daxili atəşini bəyan edən belə bir rübai oxudu:

*Dünən elə bir həyacanlı bir vüsal*
*Bu gün dünyanı yandıran belə bir fəraq*
*Təəssüf ki, ömür dəftərimə əyyam*
*Onu da bir gün yazır, bunu da bir gün.*

Xəlil Sultan 28 yaşında 1411-ci ildə Rey şəhərində vəfat etdi və Şad Mələk o aşiqi-sadiqin ölümünə dözməyib xəncəri ürəyinə saplayaraq intihar etdi. Əvvəlcədən etdiyi vəsiyyətə uyğun olaraq onu Xəlil Sultanın qəbrində dəfn etdilər.
Şad Mülk xatun Səmərqənddə bir sənətçi ailəsində dünyaya gəlmişdi.. Bacarıqlı və işgüzar bir qadın olan Şad Mələk dövləti, inzibati və siyasi işlərdə Xəlil Sultana yardım edirdi” (8, s. 4).

Gövhərşad bəyim bir çox hallarda hətta ciddi siyasi qərarların dəyişilməsinə belə nail olmuşdur. Doktor Hüseyn Mircəfəri bununla bağlı yazır: “Şahruxun həyat yoldaşı ülyahəzrət Gövhərşad ağa bu dövrün ən görkəmli və nüfuzlu qadını idi. Sultan Məhəmməd Baysunqurla Şahruxa itaətdən boyun qaçıran, Sultan Məhəmmədin havadarlığı ilə İsfahan böyüklərinin bir qismini ayağa qaldıran və bir sıra digər işlərdə ittiham olunan vəzir Seyid Fəxrəddinin xilası Gövhərşad bəyimin tövsiyyəsi və tərifi ilə mümkün olmuşdu. Bu qadının sui-qəsdindən qorxan Əbu Səid onu qətlə yetirdi. O, daha çox ədəbiyyatsevər və fazillərin himayədarı idi, abadlıq və quruculuğa maraq göstərirdi. Gövhərşad məscidi onun göstərişi ilə tikilmiş tarixi əsərlərdən biridir” (4. s.404).

Sultan Hüseyn Bayqaranın anası Firuzə bəyim oğlu Sultan Hüseyn digər on üç nəfər qohumu ilə birgə Sultan Əbu Səid Teymurinin əmri ilə tutulub Səmərqənd qalasında həbsə atılanda (h.858/m.1454) dərhal özünü Heratdan Səmərqəndə çatdırıb oğlunu azad etdirmişdi. Sultan Hüseyn Bayqaranın xanımı Xədicə bəyimin də dövlətə güclü təsiri olmuş və öz nüfuzu sayəsində oğlu Müzəffər Hüseyn Mirzəni Astrabada padişah təyin etdirmişdi.

Bir daha türklərin sarayına yaxın olan İbn Bətutənin yazdıqlarına qayıdaq. O, “Səfərnamə”sində Sultan Məhəmməd Özbək xanın sarayında yaşayan qadınlar barədə yazır: “Bu padişah çox böyük, çox güclü, son dərəcə əhəmiyyətli, intəhasız şan və şöhrətli ölkəyə sahibdir. Bu dövlət geniş əraziyə malik Qəstəntiyyə ilə daim cihaddadır”, daha sonra əlavə edir: “Xatunlar sultanın görüşünə gələndə o, hər bir xatunun qarşısında ayağa qalxır və onun əlindən tutaraq taxtın üstündə oturdur. Ancaq məqamı daha yüksək olan kraliça gələndə sultan onu qapıda qarşılayıb salam verir, əlindən tutub taxtın yanına gətirir və xatun oturana qədər oturmur. Bütün bu mərasim və ehtiramlar örtülü şəkildə deyil, xalqın gözünün qarşısında icra olunur. Xatunlar öz mənzillərinə araba ilə qayıdır: onların hər birinin əlli kənizi var və bu kənizlər atla gedirlər. Arabaların qabağında təxminən 20 nəfər yaşlı qadın at üstə xatunun arabasını əhatəyə alır, pişxidmətlər onun dövrəsində halə qurur və hamıdan axırda təxminən yüz nəfərlik qulam-bəççə dəstəsi hərəkət edir. Pişxidmətlər dəstəsinin qabağında

məmləkətlərin böyüklərindən ibarət yüz nəfərlik qrup at üstə, yüz nəfər isə piyada gedir. Süvari dəstənin və pişxidmətlərin əlində çomaq, bellərində qılınc olur" (5.s.404).

Teymuri şahzadələrinin tərbiyəsində qadınlar mühüm rol oynayırdı. Saray uşaqları dünyaya gəldikdən, doğum münasibəti ilə keçirilən ziyafətdən sonra ata-analarındın ayrılır və əvvəl böyük qadınlardan birinin nəzarəti altında tərbiyə edilir, müəyyən yaşa çatdıqdan sonra isə hakimlərdən birini onlara atalıq təyin edirdilər.

Teymurilər dövrünün məşhur xanımlarında biri də Zəhirəddin Məhəmməd Baburun bibisi Cahanara bəyim olmuşdur. Bu qadın Əfqanıstanda, xüsusilə də Kabul şəhərində böyük abadlıq işləri görmüş, məşhur Cahan bağını saldırmışdır. Bağ sonradan dağılsa da, Zəhirəddin Məhəmməd Babur və Cahangir padişah onu yenidən bərpa etmişlər.

Zəhirəddin Məhəmməd Baburun qızı Gülbədən bəyim dövründə zəkalı bir qadın kimi tanınmış və "Humayunnamə" adlı əsər yazmışdır. Əsərdə Cəlaləddin Əkbər zamanında baş verən hadisələrdən danışılır: Humayunun oğlu Məhəmməd Həkim Padişah Kabulda səltənət sahibi olduğu günlərdə Cəlaləddin Əkbərə qarşı qiyam qaldırır, Əkbər qiyamı yatırmaq üçün hərəkətə keçəndə Məhəmməd Həkim Padişah Qurbənd tərəfə qaçmalı olur. Əkbər Həkim Padişahın bacısı Bəxtin-nisa bəyimi Kabula hakim təyin edir. Bu qadın vəziyyəti sabitləşdirir və Kabul hökumətini əldə saxlayır.

Bertold Spuler "İranda monqol dövründə" əsərində monqollarda qadınların hüquqi və ictimai vəziyyəti barədə bir sıra ciddi məsələlərdən bəhs edərək yazır: "Monqollarda qadının vəziyyəti və mövqeyi ərəblərə nisbətdə qat-qat yüksək olmuşdur. Monqol dilində ən azı yeddinci əsrin sonuna qədər "hicab" sözü olmamışdır. Monqol böyüklərinin həyat yoldaşlarının, xüsusilə, başçının əsas qadınlarının öz xüsusi çadırı olardı və orada sərbəst şəkildə yaşayardılar. Onların ixtiyarlarındakı vəsaitdən istədikləri kimi istifadə etməyə ixtiyarları var idi. Qadınlar onlara miras qalmış çadırları başqasına bağışlaya bilərdilər. Başçının xanımının ağ keçədən tikilimiş çadırı daim xanın qərərgahının yaxınlığında qurulardı. Başçının arvadlarından biri öləndən sonra onun çadırı sökülmür, əgər yetkin övladları olsaydı, onlara verilər, olmasaydı, başqa qadınlara miras qalardı. Sonrakı dövrlərdə xüsusi çadırlarla bərabər, bəzən də onların yerinə qadınlara səltənət əmlakından nağd pay ayrılardı. Hülakü və Abağa xan da bu qədim adətə əməl edirdilər. Sülh imzalanan vaxt müharibədə əldə edilmiş qənimətlərdən qadınlara da pay verilərdi. Ərqun və Kixatu zamanında bu hədiyyələr o qədər çoxaldı ki, Qazan xan vəziyyətin dəyişdirilməsinin qaçılmaz olduğunu hiss etdi. O, qadınların qərargahının idarə edilməsini iki əmirə həvalə etdi və onlar yalnız padişahın icazəsi ilə pul xərcləyə bilərdilər. Qazan xan zəruri vaxtlarda qadınların yığdığı vəsaitdən istifadə edirdi. O bir dəfə bir müharibənin xərcini ödəmək üçün qadınların kassasından 1.000.000 dinar götürməli olmuşdu" (9, s. 394).

Monqol qadınları təkcə rəsmi şəkildə varis və ya səltənət sahibləri olduqları vaxtlarda deyil, digər hallarda da dövlət işlərinə müdaxilə edir və şəxsiyyətlərinə uyğun olaraq planlara təsir göstərirdilər. Monqollar bu müdaxilələri düzgün hesab edirdilər. Xan ailəsinin qadınları təkcə xarici səfirlərin qəbulunda iştirak etmir, həm də müxtəlif mərasimlərdə, o cümlədən monqol xanının seçilməsi məclisində də iştirak edirdilər. Monqol qadınlarının üstün mövqeyi İranın taleyində də mühüm rol oynamış və farslar da qadınlar qarşısında müəyyən öhdəliklər götürməyə məcbur olmuşlar.

Onu da qeyd edək ki, türk qadınları təkcə dövlət və siyasi məsələlərə müdaxilə hüququna malik deyildi, onların həm də bir sıra öhdəlikləri vardı. Məsələn, Çingiz xanın fərmanına görə, qadın ərinin yarağının hazırlamasına məsul idi, o, kişinin hərbi silah, sursatının vəziyyətinə cavabdehlik daşıyırdı. Onlar qoşunların yürüşündə də

iştirak edirdilər. Şahın xanımları öz ərini müharibə baş verəndə ən azı müəyyən müddətə müşaiyət edirdi. Bu adət Elxanilər sarayında da qalmışdı. Hüquqi və cəza baxımından qadınların vəziyyəti kişilərinkindən fərqlənmirdi. Qadınlar cadugərliyə, ərlərini zəhərləməyə və ya digər yolla öldürməyə görə ölümə məhkum olurdular. Həm də hökm əsasən suda boğmaqla icra olunurdu.

Qadının iqtisadi həyatda, o cümlədən heyvandarlıqda layiqli səhmi vardı. Qadınlar imkan olanda öz çadırlarında bayramlar tərtib edirdilər.

Xarəzmşahların tarixinə nəzər yetirdikdə, Məhəmməd Xarəzmşahın anası Türkan xatunun da fəal ictimai-siyasi xadim olduğunu görəcəyik. Bu xanım Kanqli türklərindən idi və sarayda mənsub olduğu tayfanın mövqeyini qorumağa çalışırdı. Tayfa üzvləri onun zamanında müəyyən üstünlüyə malik oldu, dövlət aparatında, dəftərxanada bir sıra vəzifələri tutdular. O, sultan, əyan və digər böyüklər arasında ciddi nüfuza malik idi, müntəzəm olaraq siyasət və dövlətçilik məsələlərinə müdaxilə edirdi.

Əmir Teymurun monqollara damad olması münasibətilə "gürkan" ləğəbini götürməsi Sultan Mahmud Qəznəvi dövründə də (971-1030) mövcud olmuşdur. Anası Zabilistan əşrəflərindən birinin nəvəsi olduğuna görə, Sultan Mahmuda Mahmud Zabilistani də deyirdilər və bu faktdan çıxış edərək Zabil camaatı Mahmuda qardaşı İsmayıldan Qəznəni almaqda kömək etmişdi. Sultan Mahmud Qəznəviyə Mahmud Zabilistani deyilməsi Nasir Xosrov Bəlxinin aşağıdakı misralarında da öz əksini tapmışdır.

*Ey amansız külək, əsib salamlarsan Xorasanı,*
*Aqil kimi, fazil kimi yad eylərsən ümməti-nadanı.*
*Nədir türk mülkündə bu fəryad, yad eləyin*
*O izzətü cəlalətdi Mahmudi-Zabilstanı.*
*Hanı onun heybətindən ki, Fəruğin əmirləri*
*Öz əllərindən vermişlər bütün zəmini-Gürkanı.*

(8, s.10)

Biz izdivacların çox halda siyasi məzmun daşıdığını qeyd etmişdik. Bizcə, 1397-ci ildə Əmir Teymurun Xəzər Xacənin qızı ilə nikahı da belə bir məqsəd daşımışdır. Xəzər Xacə monqol əmirlərindən biri idi və özünü cığatay nəslinin varisi hesab edirdi. Əvvəllər onunla Əmir Teymur arasında qarşıdurma olmuş, Uyğurustanda hakimlik edən Xəzər Xacə müharibədə məğlub olaraq Qobu səhrasına qaçmışdı. Bu gün Qaraşəhər adlanan Çalişda dayanmış Əmir Teymur orada özünün Hərbi Şurasını keçirdi. Səyyah-tarixçi Rene Qroussetin "Köçərilərin imperiyası" əsərində Xızr Xacə ikinci dəfə Monqolustanda səltənətini ələ aldı və bundan sonra iki müsəlman-onunla Əmir Teymur arasında sülh müqaviləsi imzalandı.

Bu xüsusi izdivacın Əmir Teymur üçün çox böyük qiyməti və əhəmiyyəti vardı. Bununla Əmir Teymur səltənət xanədanına daxil olurdu (7.s.498).

Xızr Xacə 1399-cu ildə vəfat etdi və onun üç oğlu Şəmcahan (1399-1408), Nəqşcahan və Məhəmməd xan (vəfat tarixi 1428) növbə ilə şahlıq taxtına yiyələndilər. Əmir Teymur öz həyat yoldaşının atasının ölümündən sonra Kaşğara daxil oldu, sonra Yarğənd və Ağ Sunu ələ keçirdi. Bunun ardınca Bay və Koça şəhərlərini işğal elədi. Bu gün Urumçi yaxınlığlında olan Qaraxoca, Turpan şəhərləri də onun sərhədləri daxilinə keçmişdi.

Məhəmməd Baburun Hindistan səfərində də qadın faktoru mühüm rol oynamışdır. H. 925/m. 1419-cu ildə Hindistana yürüş etməyi qərara almış Zəhirəddin Məhəmməd Babur birinci hücumda Bacur istiqamətində yerli sakinlərin müqaviməti ilə qarşılaşdı, Səvat tərəfə gedən isə yolu yusifzaylılar tutmuşdular. Yusifzaylıların

hakimiyyəti altında olan ərazilər strateji baxımdan çox əhəmiyyətli mövqeyə malik idi. Babur qərara gəldi ki, burada Sultan Mahmudun atası Səbüktəkinin üsulu ilə işləsin. Buna görə də tayfanın nüfuzlu şəxslərindən biri olan Mənsur şah Yusizayın qızı ilə evləndi və bu evlilik vasitəsilə adıçəkilən tayfanın etimadını qazandı. Bibi Mübarəkə adlı bu qız sonralar Babur sarayında yüksək vəzifə sahibi olan qardaşı Mir Camalla birgə Baburun cənazəsini Hindistandan Kabula gətirəcəkdi. Bibi Mübarəkə Cəlaləddinin zamanında Huindistanda vəfat etdi. Cəlaləddin Əkbər (m.1405-1554) Racput əşrəfinin birinin qızı ilə evləndi və sonradan oğluna da bir raçput qızı tayfasında bir qız aldı.

Bu ənənəni Ağqoyunlu və Qaraqoyunlu dövlətləri də davam etdirmişlər. Ağqoyunlu hökmdarı Uzun Həsən adı ilə məşhur olan Əmir Hüseyn bəyin anası Sara xatunun və xanımı Səlcuqşah bəyimin də siyasi hakimiyyətdə çox böyük rolu olmuşdur. Sara xatun öz zamanında ən ayıq bir diplomat sayılmışdır. Yəqub və Xəlilin anası olan Səlcuşah bəyim Uğurlu Məhəmmədin qətlində xüsusi rol oynamışdır. Osmanlılara və Gürcüstana qarşı döyüşdə rəşadət göstərən, atasından sonra tac və taxta sahib olmaq haqqı qazanan Uğurlu Məhəmmədlə atası Uzun Həsən arasında nifaq toxumu əkildi. Bu nifaq ata ilə oğul arasında bir-birlərinə qarşı ordu yeritmək səviyyəsinə qədər yüksəldi. Nəhayət, Uzun Həsən Osmanlılarla döyüşdən və Gürcüstana ordu yeridəndən sonra Təbrizdə amansız xəstəliyə düçar olanda həyat yoldaşı Səlcuqşah bəyim Şirazda hakimlik edən oğlu Xəlilin yanına qasid göndərdi. Uzun Həsənin oğlanlarının ən böyüyü olan Xəlil dərhal atasının yanına gəlib onun son göstəriş və vəsiyyətlərini qəbul etdi. “Teymurilərin və türkmənlərin tarixi”nin müəllifi doktor Hüseyn Mircəfəri “Əhsənüt-təvarix”ə əsaslanaraq yazır ki, Uzun Həsənin xəstə olduğu günlərdə oğlu Uğurlu Məhəmmədin kəsilmiş başını onun yanına gətirdilər, bu, onun qəlbini parçaladı və: “Əgər bu xəstəlikdən xilas olsam, onun qatillərindən mütləq intiqam alacağam” - dedi. Səlcuqşah xanım bu sözdən qorxuya düşüb onu boğdu” (4, s. 305).

Uzun Həsən h.882/m.1477-ci ildə orucluq bayramı gecəsində 54 yaşında həyata əlvida dedi. “Teymurilərin və türkmənlərin tarixi” kitabında deyilir: “Uzun Həsənin ölümündən sonra onun 4 oğlu qaldı, onların üçü bir anadan, biri isə Trabzon imperatorunun qızı Despina xatundan idi. Bu oğlan atasının ölüm gecəsi üç digər qardaşının əli ilə qətlə yetirildi” (4, s.308).

Uzun Həsən Qaraqoyunlu Cahanşahın hədələrinə görə Ərdəbili tərk edən Şeyx Cüneyd Səfəvini himayə etmişdi. Həm də Uzun Həsən onu təkcə təmtəraqla qarşılamamış, bacısı Xədicəni də ona nikahlamışdı. Sonradan isə əsl adı Marta olan qızı Həlimə xanımı Şeyx Heydərə verdi. Gələcəkdə Sultan Heydər kimi xatırlanacaq Şeyx Heydərin Marta ilə izdivacı nəticəsində onların arasında ittifaq daha da gücləndi. Sonralar adına Aləmşah deyiləcək Marta ilə evlənmə məclisi Ərdəbildə xüsusi təmtəraqla qeyd edildi.

Beləliklə, ittifaq və izdivac yolu ilə Səfəvilərin Ağqoyunlu səltənətində nüfuzu artdı və bu, yavaş-yavaş Ağqoyunluların süqutunu yetişdirdi. Yəqub zamanında, xüsusilə də onun qəfil ölümü ilə hakimiyyət Ağqoyunlu tayfasından sürətlə Səfəvilərə keçdi. Şirvan hakimi olan Fərrux Yəssarın qızı Gövhər Sultan xatundan olan oğlanlar Baysunqur və Murad, Süleyman Bijənin qızı Bikcan xatundan olan Həsən bəy Sultan Yəqubdan yadigar qaldılar. Anaları tərəfindən himayə olunan bu şahzadələr həyatlarını tez itirdilər, biri-digərinin ardınca qətlə yetirildilər.

Beləliklə, Sultan Murad zamanında h.910/m.1504-cü ildə Ağqoyunlu sülaləsinin hakimiyyəti başa çatdı və hakimiyyətə Şah İsmayıl Səfəvi gəldi.

Siyasi məqsəd güdən bu nigahlar təkcə araşdırdığımız dövrə aid deyil. Monqolların və İlxanilərin də şahları və sultanları qüdrət və nüfuzlarını artırmaq üçün özləri və oğlanlarına böyüklərin və əşrəflərin ailəsindən həmsər seçməyə cəhd edirdilər. Qüdrətli sərkərdə Əmir Çoban 719/1319-cu ildə Əbu Səidin bacısı Satı bəylə nigaha girdi. Əsil-nəsəbi Çingiz xana çatan Arpa xan 734/1334-cü ildə həmin ailədən olan qızla evləndi. Öz tərəfdarlarını artırmaq məqsədi ilə Böyük Həsən həmin ailədən olan Dilşad xanımla evləndi. Monqollar əyan ailələri ilə əlaqəyə böyük əhəmiyyət verirdilər. Çingiz xan da cavanlıq illərində Oyrat böyüklərinin yanına elçiliyə getmiş və onların ailəsindən qadın seçmişdi. O, fərman vermişdi ki, övladları öz əsl həyat yoldaşlarını Oyrat və Naymann əyanlarının qızları arasından seçsinlər. Mənku və Doquz xanın anası, Hülakunun həyat yoldaşı da həmin qəbilədən idi.

Sonralar əksər Elxanilər Çin xaqanının xanədanından olan şahzadələrlə evləndilər. Çin hökmdarının xanədanından olan Şahzadə Bulğan ölüm zamanı əri Ərğundən xahiş etdi ki, öz təzə həyat yoldaşını həmin xanədandan seçsin, Ərğun həyat yoldaşının bu xahişini qəbul etdi. Marko Polo h.694/m.1294-cü ildə sonralar Qazan xanla nigaha girən şah qızı ilə birlikdə Çinə səfər etmişdi.

Yuxarıdakı fikrin müəllifi Bertold Spuler öz əsərində yazır: "Əgər hökmdarlar bəzi hallarda qeyri-əşrəf və ya xarici ölkə padişahlarının qızları ilə nigaha girirdilərsə də, bu qadınların övladları böyük iddiada ola bilməzdilər. Bu cür nigahlar Abağanın Bizans imperatorunun qızı Məryəmlə olan nigahında da gördüyümüz kimi siyasi məqsəd daşıyırdı. Şimali Çinin padişahı h.612/1215-ci ildə Altun xandan qızını Çingizə verməyi və bu yolla onun hücumlarından qorunmağı xahiş etdi. Şərqi Rum imperatoru ikinci Andunik Qazan xana şah qızlarından biri ilə izdivaca girməyi və bu yolla yunanlarla münasibəti yaxşılaşdırmağı təklif etdi. Əbu Səid istəyirdi ki, Misirlə sülh və dostluğu Malik ən Nasirin qızı vasitəsilə həyata keçirsin. Elxanilər xanədanının şahzadələri atalarının varisi olan qızlarla evlənirdilər ki, onların torpaqlarını öz ölkələrinə birləşdirsinlər. Abağanın qardaşı Mənku Teymur m.1272-ci ildə fars şahzadəsini həyat yoldaşı etməklə h. 583/m.1274-cü ildə fars əyalətini monqolların sərhədinə daxil etdi" (9, s.254).

Tarixi materiallarla tanış olduqda biz Çingiz xanın Oyrat tayfalarına sevgisini, onlarla yaxın olmaq cəhdini görürük: O, övladlarının həmin tayfa ilə nikah bağlaması, o qəbilənin qızları ilə ailə qurması yolu ilə dövləti möhkəmləndirmək istəyirdi. Atamalek Cuvayni özünün "Tarixe-cahanqoşayi"sində bu məsələnin üzərində xüsusi dayanır və Oyrat qəbiləsini moğolların məşhur qəbilələrindən biri hesab edərək yazır: "Çingiz xanın ailəsi o qəbilədəndir. Çünki Çingizin qiyamı zamanı bu tayfa ona kömək göstərmək və arxa durmaq üçün qabağa çıxdı, təslim olmaqda birinci oldular. Nəticədə o, bu tayfaya xüsusi məhəbbətini bildirmək məqsədi ilə yaxınlarına onların əmirlərinin qızı ilə ailə qurmaq barədə fərman verdi. Çingiz qızlarından Cicekan adlı birini o qəbilənin xüsusi seçilmiş şəxsinə ərə verdi. Buna görə də bütün şahzadələr Oyrat qəbiləsindən qız almışlar" (10, s. 98)

Səlcuqilər dövründə də yüksək məqama sahib olan qadınlar hətta ölkənin müdafiə işlərində belə xüsusi rol oynamış, zəruri hallarda ordunun toplanması və təchizatı ilə məşğul olmuşlar. Eldəgiz zamanında (vəfatı h.577/1192) bu məsələni araşdıran doktor Hüseyn Zərrinkub "Gəncə piri utopik diyarda" əsərində Nizami Gəncəvinin zamanınını, əsərlərini, fikirlərini təhlil edərək yazır: "Eldəgiz zamanında Arslan bin Toğrul Səlcuğinin anası olmuş onun xatunu ölkəyə hücumların qarşısını almaq üçün ordunun təchizatında daha çox canfəşanlıq və səmimiyyət göstərir, hətta bəzən əsrin şeyxlərini və imamlarını abxazlarla mübarizəyə təşviq edirdi ki, ona həmin

müharibəyə müqəddəs cihad adı versin. Onlar üçüncü Toğrulun səltənətini və Atabək Cahan Pəhləvanı təhdid edəndə darmadağın edildilər. Təbii ki, bu müdafiədə Eldəgizin xatunu mühüm rol oynamışdır" (11, s. 57).

Göründüyü kimi, türk qadını tarixin bütün sınaqlarından şərəflə çıxaraq, çoxəsrlik nəhəng türk imperiyalarının formalaşmasında, inkişafında son dərəcə mühüm rol oynamışdır. Təbii ki, bir məqalə daxilində onların tarixi-siyasi rolunu tam əhatə etmək və lazımınca dəyərləndirmək mümkün deyildir, lakin mövzunun gələcəkdə daha dərindən araşdırılacağına, ortaya sanballı əsərlərin çıxacağına inanırıq.

## Ədəbiyyat:


1. http://archive.teleqraf.com/news.php?id=43571#
2. http://www.xalqqazeti.com/az/news/social/31769
3. Nermin Taylan, "Yaşanmış ilginc hekayələr Osmanlı padişahları". - İstanbul,2012. - 152 s.
4. میر جعفری تاریخ تحولات سیاسی، اجتماعی، اقتصادی و فرهنگی ایران در دوره تیموریان و ترکمانان تهران س ۱۳۸۱، ۳۹۴
تیموریان ۱۳۸۱، س . ۳۹۴ تهران
5. ابو عبد الله محمد بن عبد الله ابن بطوطه، سفرنامه: مرکز انتشارات علمی و فرهنگی، چاپ سوم، ج. ۲، تهران۱۳۶۱
6. گونسالس کلاویخو، سفرنامه ، ترجمه مسعود رجب نیا ، تهران، نبنگاه ، ، ۱۳۴۴.
7. رنه گروسه ، امپراطوری صحرانوردان ، ترجمه عبدالحسین میکده، تهران ۱۳۸۸، س. ۹۵۸
8. ابدالله کارگر، سیمای زن در عهد تیموریان، کابل، الازهر،۹۸،۱۳۸۷
9. ***برتولد اشپولر ، تاریخ مغول در ایران، ترجمه محمد میرآفتاب، تهران، ۱۳۸۰ س. ٥٦٤***
10. ***کتاب تاریخ جهانگشای جوینی، علاءالدین ابوالمنظر عطاملک بن بهاءالدین محمد ۱۳ ۹ جلد دوم - تاریخ خوارزمشاهیان،*** *انتشارات زوار، ۲*
11. حسین زرینکوب، پیر گنجه در جستجوی ناکجاآباد، تهران ، ۱۳۷۲
12. Əliyeva-Kəngərli A.İ. Bəşəriyyət qadınla yüksələcək. - Bakı: Elm, 2001. 146 s.
13. Əliyeva-Kəngərli A.İ. Nağıllarımızda qadın // Ədəbiyyat və incəsənət. 1984. -№30.
14. Əliyeva-Kəngərli A.İ. Azərbaycan nağıllarında qadın obrazları. -Bakı, 1992.



**Айбениз Алиева-Кенгерли,**
*доктор наук по филологии*

**Ибрагим Кулиев,**
*доктор философии по филологии*


## О РОЛИ ТЮРКСКИХ ЖЕНЩИН В ИСТОРИИ

### Резюме


В статье исследуется деятельность тюркских женщин в общественно-политической, экономической, культурной, научной, литературной и др. сферах жизни в Сельджукской, Тимуридской, Могольской, Хорезмшахов, Аккойунлу, Каракойунлу, Сефевидской и других империях. Опираясь на достоверные

исторические источники, авторы статьи отмечают немалую роль тюркских женщин, наравне с мужчинами участвовавших в становлении и сохранении государственности в вышеуказанных великих тюркских империях. Кроме того, отношение тюрок к женщинам выгодно отличалось от отношения арабов к женщинам.

**Aybeniz Aliyeva-Kangarli,**
*doctor of philology*

**Ibrahim Guliyev,**
*doctor of philosophy in philology*

## ROLE OF TURKİC WOMEN İN HİSTORY

### Summary

This article poses a research of activities of Turkic women in social, political, economic, cultural, scientific, literary and other spheres of the life in the Seljuk, Timurid, Mongol, Khwarazmshahs, Aghgoyunlu, Karagoyunlu, Safavid and other Turkic empires. Based on reliable historical sources the authors note that Turkic women on a par with men assisted for the formation and preservation of statehood of the above mentioned great empires. In addition the attitude of Turks towards women was favorably different from that of the behavior of Arabs to women.